*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 10, 2025*
*Səh. 385-391*

https://doi.org/10.62837/2025.10.385

**Fil.ü.f.d., dosent AYTƏN CƏFƏROVA**
**Naxçıvan Müəllimlər İnstitutu**
**Naxçıvan Şəhəri**
**ceferli_ayten@mail.ru**
**ORCİD: 0000-0002-9547-3155**

# TƏDRİS PROSESİNDƏ MİLLİ DÜŞÜNCƏNİN FORMALAŞDIRILMASI: VƏTƏNDAŞLIQ VƏ VƏTƏNPƏRVƏRLİK MƏDƏNİYYƏTİ

Milli düşüncə və şüurun formalaşmasında təhslin rolu olduqca önəmlidir. Təhsilin məhz bu istiqamətdə təşkil olunması xalq olaraq var olmanın, birlik və möhkəmliyin də təminatçısıdır. Azərbaycan Respublikasının təhsil sistemində müstəqlik siyasətində sonra aparılan islahatlar da bu yöndə təşkil olunub. Məqalədə milli düşüncə ilə bağlı təhsildə aparılan islahatlar, milli düşüncənin formalaşmasının vətəndaşlıq və vətənpərvərlik mədəniyyətninin formalaşması və inkişafındakı rolu, xidməti haqqında bəhs olunur.

**Açar sözlər:** *təhsil, milli düşüncə, vətəndaşlıq mədəniyyəti, islahatlar*

**Ayten Jafarova**

## FORMATION OF NATIONAL THOUGHT IN THE EDUCATIONAL PROCESS: CITIZENSHIP AND PATRIOTISM CULTURE

The role of education in the formation of national thought and consciousness is very important. The organization of education in this direction is the guarantor of existence, unity and strength as a people. The reforms carried out in the education system of the Republic of Azerbaijan after the independence policy were also organized in this direction. The article discusses the reforms carried out in education related to national thought, the role and service of the formation of national thought in the formation and development of the culture of citizenship and patriotism.

**Keywords:** education, national thought, culture of citizenship, reforms

**Айтан Джафарова**

## ФОРМИРОВАНИЕ НАЦИОНАЛЬНОГО МЫШЛЕНИЯ В ОБРАЗОВАТЕЛЬНОМ ПРОЦЕССЕ: КУЛЬТУРА ГРАЖДАНСТВЕННОСТИ И ПАТРИОТИЗМА

Роль образования в формировании национальной мысли и сознания чрезвычайно важна. Организация образования в этом направлении является залогом нашего существования как нации, а также нашего единства и силы.

Реформы, проводимые в системе образования Азербайджанской Республики после обретения независимости, также были организованы в этом направлении. В статье рассматриваются реформы, проводимые в образовании, связанные с национальной мыслью, роль и заслуга формирования национальной мысли в формировании и развитии культуры гражданственности и патриотизма.

**Ключевые слова:** образование, национальная мысль, гражданская культура, реформы

**Giriş.** Müasir dövrümüzdə milli düşüncəmizin, necə deyərlər, üzünün güldüyü bir vaxtda, həyatımızın bir çox sahələrində olduğu kimi təhsilimizdə də milli düşüncə baxımından fərqli yanaşma və tədris üsullarını müşahidə edə bilirik. Milli düşüncənin əsas faktorları xalqımızın millliklə bağlı etnik təfəkkürünün oyanmasında təzahür edir. İnsanların qədim ənənədən qaynaqlanan düşüncələri aktivləşərək ictimai və məişət həyatımızda öz əksini tapmaqdadır. Həm də bu məqam təkcə gözə çarpan məsələlərdə deyil, ümumi məsələlərin inkiafında əsas təkan olan təhsil kimi əsaslı faktda da doğulmaqdadır. Və bunun inkişafında səbəblər və səbəbkarlar məsələsi də diqqət cəlb edir. Əgər diqqət edərsək, səbəblərin təhsilimizdə aparılan islahatlarda qabarmasını aydınca görə bilərik. Səbəbkarlar isə təhsil işçiləri – müəllimlərdir. Amma təkcə müəllimlərlə təhsil işçiləri anlamını məhdudlaşdırmaq olmaz. Çünki təhsildə əgər gözə görünən qəhrəmanlar müəllimlərdirsə, gözə görünməyən, üzdə olmayan, amma fəaliyyətilə milli təhsil islahatlarına yetərincə töhfə verən digər təhsil qəhrəmanları: psixoloqlardan tutmuş təhsil müəssisələrində çalışan xadimələrə qədər hər kəs təhsilimizdə formalaşan milli düşüncə məsələlərində əsaslı xidmət müəllifidirlər. Əgər sual olunsa ki, təhsildə çalışan xadimələrin, ümmumiyyətlə, texniki sahədə çalışan şəxslərin milli düşüncə ilə bağlı hansı fəaliyyəti ola bilər. Onda cavab belə ola bilər ki, təhsil müəssisələrində çalışan xadimələr, o cümlədən digər texniki sahənin əməkdaşları öz yorulmaz xidmətləri, şagirdlər və müəllimlərlə ünsiyyətləri, şagirdlərlə qayğıkeş və doğma rəftarları ilə, əsasən də öhdələrinə düşən vəzifələrin layiqincə yerinə yetirməklə məhz milli düşüncəmizin formalaşması və qorunmasını təmin etmiş olurlar. Təhsil müəssisələrində dərs alan insanların – şagirdlərin milli təfəkkürünün oyanması və qidalanmasında təkcə müəllim əməyi yetmir, ümumiyyətlə məktəb kollektivinin hər bir nümayəndəsi öz fəaliyyəti çərçivəsində şagird psixologiyasının və tərbiyəsinin milli düşüncə ilə zənginləşməsində əvəzsiz öhdəlik daşıyır. Müəllimlərin isə əməyi bu sahədə çox dərin və genişşaxəlidir. Müəllim yalnız dərs keçməklə öz borcunu yerinə yetirmir, şagirdlərin milli maraqlara xidmət edən düşüncə ilə formalaşması və tərbiyələnməsində ən məsul şəxsiyyətdir. Hazırlıq qrupuna ilk dəfər qədəm qoyan azyaşlının artıq nəzərində müəllim bir növ, müqəddəsləşir. Müəllimin bir sözü onun üçün qanuna çevrilir. Əgər əvvəllər müəllimlər haqqında şagird təxəyyülü daha dərin idisə, yəni "müəllim yemək yeməz", "müəllim su içməz", "görəsən, müəllim evdə

necə hərəkət edir" və s. bu kimi suallar şagird nəzərində hökm sürürdüsə, indi belə düşüncələr, demək olar ki, müasir şagirdlərə yaddır. Onlar qəbul edirlər ki, müəllimlər də onlar kimi adi məişət həyatı yaşayırlar. Diqqət etsək, görərik ki, müasir dövrümüzdə şagirdlərin müəllimlərə qarşı münasibətində sadələşmələr mövcuddur və bunun da səbəbinin müasir texnoloji inkişafda axtarmaq olar. Müasir texnoloji inkişafın nəticələrindən olan kompyüter və smart telefonlarından istifadə edən şagirdlər hər gün sosial şəbəkələrin təqdim etdiyi müxtəlif üsullarla tanış olandan sonra müəllim-şagird ünsiyyətindəki daha sadə yanaşmalardan qaçır, onlara adi gözlə baxırlar. Hansının yaxşı, hansının isə pis olmasının nəticəsinə gəlməksə mümkün deyildir. Hər halda hər iki yanaşmada müsbət və mənfi məqamlar aydındır.

**Əsas hissə.** Vətənpərvərlik mədəniyyətinin aşılanması zamanı, əvvəldə də qeyd etdiyimiz kimi, müəllimin üzərinə çox böyük məsuliyyət düşür. İstər dərsliklərdə, istərsə də metodiki vəsaitlərdə şagirdlərdə vətənpərvərlik duyğularının aşılanmasına dair kiçik mətnlər verilmişdir. Bu mətnlərin birbaşa şagirdərə çatdırılması göstərilməsə də, şagirdlərin yaş səviyyəsi nəzərə alınaraq onlara mətnlərin əsas ideyasını uyğun şəkildə çatdırmaq tövsiyə olur. Burada əsas məqsəd şagirdlərin təfəkküründə ilkin olaraq sözügedən mədəniyyətin toxumlarının əkilməsidir. Yəni şagirddə vətənpərvərlik duyğusunun məktəb səviyyəsində aşılanmasına başlamaqdır. Təbiidir ki, bu məsələlər gələcəkdə daha geniş şəkildə icra ediləcəkdir.

Vətəndaşlıq mədəniyyəti nədir? – İstərdik ki, bu söz birləşməsinin tərkibində olan "mədəniyyət" kəlməsinə ilk olaraq aydınlıq gətirək. Mədəniyyət – dəyişmək, inkişaf etməkdir. Mövcud olanı, ibtidaini, təbiini müasir konsepsiyalara uyğun dəyişdirməkdir. Lakin mədəniyyət heç də təkcə maddi olanı, görünəni, konkretləri dəyişmək deyildir. Mədəniyyət hissləri, duyğuları, baxışları və s. bunabənzər mücərrədləri də dəyişib inkişaf etdirmək, müasirliyə uyğunlaşdırıb, novatorluğun sərhədlərinə də hörmətlə yanaşmaqdır.

Mədəniyyət haqqında müxtəlif zamanlarda görkəmli şəxsiyyətlər müxtləlif təriflər vermişlər. Bunlardan bəzilərinə diqqət edə bilərik. Məsələn, "Amerikalı filosof D. Böll mədəniyyəti müəyyən ruhi vəziyyət kimi səciyyələndirir. O, belə hesab edir ki, cəmiyyət, qrup və ya şəxsiyyət üçün mədəniyyət məntiqi cəhətdən davamlı estetik baxışlar, mənəvi "mən" konsepsiyası və bu konsepsiyanın insanı bəzəyən əşyalarda, onun yaşayışında, habelə zövqlərində ifadə edən həyat tərzi sayəsində mümkün olan bütövlük vasitəsilə fərdiyyətin dəstəklənməsindən ibarət prosesdir. Mədəniyyət hissiyyat, emosiyalar, mənəvi temperament və bütün hissləri nizamlayan zəka sahəsidir"[2, s.261]. Təqdim olunan fikirlərə əlavə olaraq demək yerinə düşər ki, mədəniyyət var olanı insanın daha təkmilləşməsi və inkişafına müsbət təsdir edəcək qədərində dəyişmək, bu istiqamətlərdəki prinsiplərə uyğunlaşdırmaqdır. Mədəniyyət hisslərin, duyğuların da formalaşdırılmasında təzahür edə bilər. Mövcud və ya baş verən hadisələrə fərdin uyğun tərzdə yanaşması,

ictimaiyyətin rəğbətini qazandıracaq qədər hadisələrə reaksiya və rəftarı mədəniyyətin üsullarına aid ola bilər. Yəni, insan ətrafında baş verən hadisəyə, cəmiyyətə və əxlaqi dəyərlərə uyğun şəkildə yanaşır, hərəkət edirsə bunun özündə böyük mədəniyyət vardır. Və bu, düşüncə və duyğuların ilkin olaraq formalaşdırılması və sonradan düşüncələrin maddi olaraq hərəkətlərdə təzahürüdür. İlk olaraq ailədə azyaşlılarda mənsub olduğu xalqa məxsus əxlaqi dəyərlərin aşılanması və formalaşdırılması məsələsi valideynlər və ümumiyyətlə, ailə üçün prioritet məsələ olmalıdır. Bu öhdəliyi təkcə məktəbəqədər təhsil müəssisəsi və məktəb əməkdaşlarının öhdəsinə atmaq yanlış düşüncədir. Yəni, əgər biz düşünsək ki, uşaq elə bağçaya və ya məktəbə gedəndə tərbiyələnəcək, bu əsl səhv yanaşmadır. Uşaq ailədə ilkin tərbiyə almalıdır. Onsuz da genetik məsələlərdən olan tərbiyə məsələsi də uşağın xislətində özünü aydın büruzə verəcəkdir. Amma ən azından valideynin ilkin əxlaqi görüşləri uşaqda aşılamağı müəllimlərin öhdəsindəki borcları müəyyən qədər yüngülləşdirir və uşağın tərbiyə işi uğurla yerinə yetirilir. Yox, əgər bunlara birmənalı yanaşıb ancaq bağça və ya məktəb – şagird əlaqələri zamanı şagirdin əxlaqi görüşlərinin formalaşmasını gözləmək çox bəsit və yanlış yanaşmadır. Uşağın tərbiyəsinin ümumi olaraq ailə → bağça → məktəb → cəmiyyət şəklində aparılmağı daha məqsədəuyğundur. Təbiidir ki, təhsil alan şəxsin aparıcı tərbiyəsi məktəbəqədər təhsil müəssisəsi və məktəblərdir.

Təhsil alan hər bir insanın həyat yolu məktəb mərhələsindən keçir. İnsan bu mərhələni keçərkən məktəbin ab-havası, özünəməxsus aurası onun əqlinin, əxlaqi-mənəvi keyfiyyətlərinin, fiziki kamilliyinin formalaşmasına təsir göstərir, onun vətənə, xalqa məhəbbət ruhunda tərbiyə olunaraq əsl insan, əsl vətəndaş kimi formalaşmasında xüsusi rol oynayır. Təbii ki, məktəb özünün cəmiyyət qarşısında olan bu məsul və şərəfli vəzifəsini daha ləyaqətlə yerinə yetirmək üçün bütün potensial imkanlarından istifadə edərək cəmiyyət qarşısında hesabat verməli və bu fəaliyyətini ardıcıl olaraq davam etdirməlidir [4, s.72]. Demək mümkündür ki, bütün bunların icrası isə nəzərdə tutulmuş prinsiplərə uyğun həyata keçirilirsə, bunun özü də tərbiyə mədəniyyətinin bir hissəsidir. Və məktəbin bütün yaş səviyyəsinə məxsus şagirdləri milli əxlaqi-mədəni dəyərlərin tərbiyəsi ilə yetişdirilməlidirlər.

Vətən insanın ilk olaraq gözünü açdığı, suyunu içib, çörəyini yediyi müqəddəs məkandır. Vətən – Ana kəlmələri bizə gözümüzü dünyaya açandan bəri öyrədilir. Biz azərbaycanlılar üçün bu iki kəlmə paralel anlam daşıyır. Vətəni ana bilib canlarını bu yolda fəda edən igidlərimizin elə lap kiçik yaşlarından ruhu bu qidayla doydurulmuşdu. Odur ki, göz qırpmadan onlar canlarını Vətən yolunda fəda etdilər. Vətəni sevmək, onu qorumaq əsasən tərbiyənin predmetidir. Lakin genetik məsələlər də bu məsələdə inkarolunmazdır. Bir fərd əgər vətən və ana məfhumların sevir və və onlara hörmət edirsə, bu, ilkin olaraq, onun genetik kodlarından qaynaqlanır. Lakin tərbiyə sayəsində bu təbii duyğular daha da inkişaf etdirilə və ya əksinə doğru istiqamətə yönləndirilə bilər. Kiçik yaşlı məktəblilərə aid dərsliklərdə məhz bu

Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu, ISSN 2224-9257
Filologiya məsələləri № 10, 2025
Səh. 385-391

məslələrə diqqət yetirilir. Əgər qəbul etsək ki, vətəndaşlıq düşüncəsi və Vətən sevgisi kimi vacib duyğu faktorlarının əsasında humanizmə aid olan digər duyğuların varlığı dayanır, onda ilkin olaraq həmin hiss və duyğuların aşılanması vacib məsələ və problem olaraq ortalığa çıxır. Bura yaxşılıq, mehriban ünsiyyət, rəhmlilik, qayğıkeşlik, məsuliyyət v s. kimi duyğular daxildir ki, onların aşılanması vətəndaşlıq və vətənpərvərlik hisslərinin, duyğularının təməli rolunu oynaya bilər.

Müstəqillik dövrümüzün ən aktual problemi kimi vətənpərvərlik tərbiyəsinin dövrün tələblərinə cavab verən müxtəlif forma, metod və vasitələri mövcuddur. Lakin bunların sırasında şüur və əqidəni formalaşdıran metodun vasitəsi olan nümunənin rolu əvəzsizdir. Xalqımızın döyüş və qəhrəmanlıq ənənələri əsasında vətənpərvərlik tərbiyəsi xüsusi yer tutur. Türk xalqlarının keçmişi, bu günü, azadlıq mücahidlərinin, Böyük Vətən müharibəsi, Qarabağın azadlığı uğrunda şəhid olan qəhrəmanlarımızın nümunələri bu gün ən dəyərli tərbiyə vasitəsi hesab edilə bilər [3, s.40]. Müasir günümüzdə də vətənpərvərliyin inikası olaraq II Qarabağ müharibəsində ümumxalq vətənpərvərlik, əsl vətəndaşlıq, Vətən sevgisi bu məqamla bağlı həyata keçirilən bütün işlərdə öz təzahürünü tapdı. II Qarabağ müharibəsində şəhid olan və ya yaralanan, ümumiyyətlə müharibənin iştirakçısı olan oğul və qızlarımızın əsası gənc nəsil idi. Hansı ki, onlar qondarma Qarabağ iğtişaşları haqqında məlumatları yalnız televiziya ekranları, mətbuat, internet vasitələri, öz ailələri, oxuduqları məktəbdə aldıqları tədrisdən, təlim materiallarından əldə etmişdilər. Yəni birbaşa bu münaqişənin şahidi olmamışdırlar. Hərçənd bu, vətən sevgisinin olmaması üçün səbəb sayıla bilməz. Amma hər bir halda Vətən sevgisini, əsl vətəndaşlığı aşılamaq, insanda yaratmaq və formalaşdırmaq üçün ailənin və məktəbin müştərək şəkildə çox böyük rolu vardır. Əvvəldə də söylədiyimiz kimi, dərs vəsaitlərində elə ibtidaidən başlayaraq humanist duyğuları təbliğ edən mətnlərin mövcudluğu elə vətənpərlik və vətəndaşlıq duyğularının təbliğində də böyük əhəmiyyət daşıyır. Məsələn, ibtidai siniflərin 2-ci sinfinin “Azərbaycan dili” dərsliyinin ilk – 1-ci dərs üçün təqdim olunan şəkildə maraqlı təsvir var [1, s.7]. “Ailə ağacı” adlı şəkildə ailə üzvləri şəkillər əsasında göstərilir. Şəklin təsviri belədir: qollu-budaqlı ağac təsvir olunur. Ağac köklü, şaxəli ağacdır. Budaqları da olduqca qalın və möhkəm görüntülü təsvir olunur. Ana və ata ağacın ortasında təsvir olunur. Onlardan üstdə ata və ananın qohumları: əmi, dayı, bibi, xala göstərilir. Bacı və qardaş isə ağacın ən üst tərəfindəki budaqda əks olunur. Maraqlı olan nənə və babaların ağacın kökündə təsvir olunmaladır. Burada ailə şəcərəsi təsvir olunmaqla şagirdə ilkin olaraq ailə dəyərləri aşılanır. Şəklin üzərindəki suallar da ailədəki insanların yerini və mövqeyini şagirdə bir daha xatırlatmaq məqsədi daşıyır. Suallardan birincisi – Yay tətilini necə keçirdiniz?; ikinicisi isə - Hansı qohumlarınızla vaxt keçirmək daha maraqlıdır? – sualları şagirdləri ailə və qohumluğun insan həyatındakı əhəmiyyətini göstərmək, nəzərə çatdırmaq xarakteri daşıyır. Digər suallar müəllim tərəfindən də tərtib edilə bilər. Məsələn, niyə

qohumlar ağac və onun budaqları üzərində təsvir edilib?; Nənə və babalar niyə ağacın gövdəsində təsvir olunub? və s. bu kimi suallarla ailə şəcərəsi və ağac təsvirinin qarşılıqlı əlaqəsi ilə bağlı mövzu meydana çıxarar. Müəllim bu mövzunu elə tədris etməlidir ki, azyaşlı şagird ailə və qohum anlayışlarını dərk etsinlər. Bu məsələ elə icra olunmalıdır ki, əgər bu vaxtadək ailədəki insanların varlığı onlar üçün adi görünürdüsə və bu da təbii idisə, bundan sonra o, ailə nümayəndələrinin mövqeyini və funksiyasını, onun həyatındakı vacib və önəmli yerini dərk etmiş olsun. Yaxşı olardı bu məsələdə şagirdlərlə interaktiv fəaliyyət təşkil olunsun. Və müəllimin nəzərdə tutduğu suallar ailənin və qohumların dəyərini üzə çıxarmağa xidmət etməlidir. Bütün bunlara izah olaraq bir ifadəni xatırladaq ki, ailə kiçik dövlətdir. Ailədəki qayda-qanun onun kiçikyaşlı üzvlərinin tərbiyəsinə birbaşa xidmət etməlidir. Bu, heç də o demək deyil ki, ailədə sərt, ciddi, humanizmdən kənar rejim olmalıdır. Əsla yox! Ailədə humanizm öncül olmalı, lakin bu humanizm çərçivəsi daxilində əxlaq və tərbiyə normaları qorunmalı və aşılanmalıdır. Sözügedən dərslikdə təqdim olunan "Ailə ağacı" şəkil-təsvirində də məhz bu məqamların icrasının vacibliyi ibtidai şəkildə təqdim olunur. Yəni ailənin yaşca böyükləri ailənin sütunlarıdır. Onlara hörmət digərlərinin ümdə borcudur. Sonrakılar isə ailənin təməlidir, yəni ana və ata ailədə əsas insanlardır. Onlar ailənin hüdudlarının genişlənməsi, sağlam və xoşbəxt yaşamasının təminatçısıdırlar. Onların qohumları isə ailəyə hər zaman dəstək verən şəxslərdir. Qohumluq əlaqələri haqqında ilkin düşüncə isə məhz ağacda təsvir olunan əmi-dayı, bibi - xala timsalında təzahür olunur. Onlara da hörmət etmək və sevmək ailənin kiçikyaşlı üzvlərinin borcuna çevrilməlidir. Müqəddəs İslam dinimizdə də qohumluq əlaqələrinin qorunması haqqında qiymətli hədislər mövcuddur. "Qohumluq əlaqələrini qoparan cənnətə girməz" hədisində bu məqam ifadə olunur. Bu əlaqələri qoruyan, ona dəyər verən insan, təbiidir ki, xalqına da dəyər vermək xüsusiyyətini qazanacaqdır. Ümumiyyətlə, şəxs əgər ailədə hər şeyi normal görürsə, cəmiyyətə, dövlətə də həmin baxışlarla və düşüncələrlə yanaşacaqdır.

**Nəticə və müzakirə.** Ailə dəyərləri milli şüurun formalaşmasına da birbaşa təsir edir. İstərdik, bu məqamda dəyər nədir? və dəyərlərin insan təfəkkürünün formalaşması və kamilləşməsində hansı rolu vardır? - kimi suallara diqqət edək. Əgər biz dəyərlərin həyatımızdakı yerini araşdırmış olsaq, təbiidir ki, bunun çox qədim və bir o qədər də dərin sistem olduğunu görmüş olarıq. Bu baxımdan həmin məqama ötəri nəzər salmağı kifayət hesab edirik. "Dəyər hər hansı bir şeyin ictimai xüsusiyyətidir" – fikrinə əlavə olaraq deyə bilərik ki, dəyər var olanın var olma vacibliyini təsdiq edən bir meyardır, ölçücür. Dəyərlər maddi və mənəvi olaraq qruplara ayrılır. Əgər maddi dəyərlər aid olduğu obyektin keyfiyyətini təcəssüm etdirirsə, mənəvi dəyərlər isə daha böyük üstünlüyə malikdir. Mənəvi dəyərləri qorumaq mənəvi yanaşma gücü, dözümlülüyü və səriştəsi tələb edir. Hər hansı bir xalqın maddi dəyərləri hansısa tarixi dövrdə itsə-batsa, onun özünün yox olmaq,

itmək təhlükəsi bir o qədər də yüksəlmir. Amma mənəvi dəyərlərin itməsi xalqın mənəvi kimliyinin itməsi deməkdir. İnsan, toplum, xalq yalnız maddi ilə var ola, mövcud ola bilməz. Mənəvi dəyərlərin xalqın tarixi haqqında gizlinləri yeri gələndə müəyyən edə bilir. Ümumiyyətlə, dəyər anlamına müxtəlif cür yanaşan mütəxəssislərin müxtəlif fikirləri də mövcuddur. "Elmi ədəbiyyatda dəyərə belə bir tərif verilir: fərd, sosial qrup, və ya bütövlükdə cəmiyyət üçün zəruri olan, onalrın tələbatlarını, maraq və məqsədlərini ödəməyə qadi olan hər şey dəyərlər kimi başa düşülür. Bu meyarlara əsasən həm mövcud olanlar, həm də ideal şəklində gələcəkdə insanların nail olmaq istədikləri dəyərlərə aiddir" [4, s.20]. Dəyərlər ənənəvidir, ailələrimiz bizlərə dəyərləri aşılamaq üçün çalışmışlar, dəyərlər inanclarımızdır, dəyərlər cəmiyyətimizi etibarlı və təhlükəsiz edir [4, s.26]. Dəyərlərin aşılanmasında ailənin rolu olduqca önəmlidir.

**Yekun nəticə.** Əxlaqi-mənəvi dəyərlərin təbliği azyaşlıda milli şüur, vətəndaşlıq və vətənpərvərlik duyğularının qatı və möphkəm şəkildə formalaşmasında əsl sütundur. Azyaşlılara milli dəyərləri aşılamadan Vətən haqqında əsaslı düşüncəni formalaşdırmaqdan söhbət belə gedə bilməz. Odur ki, bu məsələdə milli şüurun yaranması, formalaşması və möhkəmlənməsi işləri ailənin və məktəbin ən ümdə vəzifəsinə çevrilməlidir.

## ƏDƏBİYYAT

1. Azərbaycan dili – 2ci sinif. Dərslik. 2 hissədə, 1-ci hissə. Bakı: Təhsl Nəşriyyat-Poliqrafiya, 104 s.
2. Mehdiyev R. Fəlsəfə. Bakı: Şərq-Qərb, 2010, 360 s.
3. Məmmədov K, Müstəqillik dövrümüzün pedaqoji problemləri. Bakı: Zəngəzurda, 2020, 108 s.
4. Təhslin idarə olunmasında dəyərlər. Monoqrafiya. Bakı: Mütərcim, 2019, 188 s.

**Rəyçi: Akademik Muxtar İmanov**